## Mustafa Kamal Atatürk

Mustafa Kamal Atatürk (1881-1938) 1881-ci ildə Səlanikdə (indiki Yunanıstanın Salonika şəhəri) doğulub. Polis zabitliyi, katiblik və taxta-şalban ticarəti ilə məşğul olmuş Əli Rza Əfəndi 1871-ci ildə Zübeydə xanımla evlənir. Atatürkün beş bacı və qardaşlarından təkcə Makbule (Atadan) 1956-cı ilə qədər yaşayıb. Mustafa 7 yaşında atasını itirib. Bir müddət Rarla fermasında dayısının yanında qaldıqdan sonra Səlanikə qayıdıb məktəbi tamamlayır. 1893-cü ildə hərbi məktəbə daxil olur, bu məktəbdə ikən riyaziyyat müəllimi Mustafa bəy adına "Kamal"ı əlavə edir. 1896-1899-cu illərdə Manastır Hərbi məktəbini bitirərək İstanbul Hərb məktəbində təhsilə başlayır. 1902-ci ildə leytenant rütbəsi ilə məzun olur, Hərbi Akademiyada təhsilinə davam edir. 1905-ci ildə karitan rütbəsi ilə Akademiyanı bitirir. 1905-1907-ci illər arasında Şamda 5-ci Ordu əmrində xidmət edir, 1907-ci ildə kolağası (yüzbaşı) rütbəsi alır. Sonra Manastıra 3-cü Orduya təyin olunur. 1909-cu ildə İstanbula girən Hərəkat Ordusunda qərərgah rəisi olaraq xidmət edir. 1910-cu ildə Fransaya göndərilir, Pikardi Manevralarında iştirak edir. 1911-ci ildə İstanbulda Baş Qərargah Mərkəzi əmrində xidmətə başlayır. Türk-İtalyan müharibəsində Mustafa Kamal bir qrup yoldaşıyla Tobruk və Dərnə bölgəsində xidmət edir, 1911-ci ilin dekabrında italyanlara qarşı Tobruk döyüşündə qalib gəlir. 1912-ci ilin martında Dərnə komendantı təyin olunur.

1912-ci ilin oktyabrında Balkan müharibəsi başlayan vaxt Mustafa Kamal Gəlibolu və Bolayırdakı ordu hissələri ilə müharibədə iştirak edir. Dimetoka və Ədirnənin geri alınmasında böyük xidmətləri olur. 1913-cü ildə Sofiya Hərbi Ataşeliyinə təyin olunur, bu vəzifədə ikən 1914-cü ildə rodrolkovnik rütbəsinə yüksəlir. Hərbi Ataşe vəzifəsi 1915-ci ilin yanvarında sona çatır. Bu müddət ərzində I Dünya Müharibəsi başlayır, Osmanlı İmreratorluğu müharibəyə girmək məcburiyyətində qalır. Mustafa Kamal 19-cu Tüməni qurmaq üçün Tekirdağa göndərilir, Çanaqqalada Antanta dövlətlərinə qarşı vuruşlarda böyük şücaət göstərir. Çanaqqala döyüşündən sonra 1916-cı ildə Ədirnə və Diyarbəkirdə vəzifə alır, general-mayor rütbəsinə yüksəlir. Muş və Bitlisin ruslardan geri alınmasını təmin edir. 15 avqust 1918-ci ildə Hələbdə 7-ci Ordu komandiri təyin edilir, bu cəbhədə ingilislərə qarşı uğurlu müdafiə təşkil edir. Mondros Müqaviləsinin imzalanmasından bir gün sonra 31 oktyabr 1918-ci ildə İldırım Orduları Qrupuna komandir təyin edilir, bu ordunun ləğv edilməsindən sonra isə 13 noyabr 1918-ci ildə İstanbula gələrək Müdafiə Nazirliyində vəzifəyə başlayır. Antanta dövlətlərinin Osmanlı ərazilərini işğala başlamalarından sonra Mustafa Kamal 19 may 1919-cu ildə Samsuna gedir. 23 iyul-7 avqust 1919-cu ildə Ərzurum, 4-11 sentyabr 1919-cu ildə Sivas Konqresini çağıraraq ölkənin işğaldan təmizlənməsi üçün izlənməli yolu müəyyən edir. 1919-cu ilin dekabrında Ankarada həyəcanla qarşılanır. 23 Arrel 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinin açılmasıyla Türkiyə Cümhuriyyətinin qurulması yolunda əhəmiyyətli addım atılır. Məclis və hökumət

başqanlığına seçilərək Türkiyə Böyük Millət Məclisinin Qurtuluş Mübarizəsinin uğurla nəticələnməsi üçün gərəkli qanunları qəbul edib, tətbiqinə başlamasını təmin edir.

Atatürkün rəhbərlik etdiyi Türk Qurtuluş mübarizəsinin əsas mərhələləri: Sarıqamış (20 Sentyabr 1920), Qars (30 Oktyabr 1920) və Gümrünün (7 Noyabr 1920) azad edilməsi; Çukurova, Qazianter, Maraş və Urfa müdafiələri (1919-1921); I İnönü zəfəri (6-10 Üanvar 1921); II İnönü zəfəri (23 Mart-1 Arrel 1921); Kütahya-Eskişehir döyüşləri; Sakarya zəfəri (23 avqust-13 sentyabr 1921); Böyük Hücum, Başkomandanlıq döyüşü və Böyük Zəfər (26 Avqust-9 Sentyabr 1922). Sakarya zəfərindən sonra 19 sentyabr 1921-ci ildə Türkiyə Böyük Millət Məclisi Mustafa Kamala Marşal rütbəsi və Qazi titulu verib. Qurtuluş Mübarizəsi 24 iyul 1923-cü ildə imzalanan Lozan Müqaviləsi ilə sona çatıb. "Sevr" müqaviləsilə rarçalanan, türklərə 5-6 vilayət böyüklüyündə ərazi verilən Türkiyə varlığını Atatürkün hünəriylə təsdiq etdi.

1922-ci il noyabrın 1-də xilafət və monarxiya bir-birindən ayrılır, monarxiya ləğv edilir. 29 Oktyabr 1923-cü ildə Cümhuriyyət elan edilir, Atatürk yekdilliklə ilk cümhurbaşqanı seçilir. 30 Oktyabr 1923-cü ildə İsmət İnönü tərəfindən Cümhuriyyətin ilk hökuməti qurulur. Türkiyə Cümhuriyyəti "Hakimiyyət qeydsiz-şərtsiz millətindir" və "Üurdda sülh, cahanda sülh" ideoloyi əsasları üzərində qurulur. Atatürk 1927, 1931, 1935-ci illərdə TBMM tərəfindən yenidən cümhurbaşqanı seçilir.

1922-ci ilin avqustunda başlanan hücum əməliyyatları nəticəsində tam məğlubiyyat qarşısında qalan müttəfiqlər oktyabrın 11-də Mudanya sülh müqaviləsini imzalamağa məcbur oldular. Noyabrın 1-də TBMM tərəfindən Sultan hakimiyyəti ləğv olundu.

Antanta ilə Türkiyə arasında 1923-cü il iyulun 24- də Lozannada sülh müqaviləsi imzalandı. İşğal rejimi, Mudros və Sevr müqavilələri ləğv edildi, Türkiyənin müstəqilliyi və yeni sərhədləri tanındı. Lozanna müqaviləsi türk milli dövlətinin öz varlığını beynəlxalq aləmdə hüquqi cəhətdən təsdiq etməsi demək idi. 1923-cü il oktyabrın 29-da TBMM Türkiyəni respublika elan etdi. Mustafa Kamal prezident seçildi (1923-1938).

Mustafa Kamal geniş islahatlar proqramını həyata keçirməyə başladı. **Respublikaçılıq, millətçilik, xalqçılıq, etatizm, dünyəvilik** və **inqilabçılıq** prinsiplərinə söykənən və ölkəni demokratik inkişaf yoluna çıxaran bu islahatlar Mustafa Kamal inqilabları adı ilə tarixə düşdü.

XX əsrin 20-ci illərində şəriət məhkəmələri ləğv edildi. Avropa nümunəsində yeni mülki və cinayət məcəllələri qəbul olundu. Qadınlara kişilərlə bərabər hüquqlara verildi. Avropa geyimlərinə keçildi. Çadra və fəs atıldı. Yeni latın qrafikalı əlifba tətbiq olundu. Hökumət iqtisadi sahədə etatizm siyasəti yeritməyə başladı. Dövlət

sənaye və ticarətdə başlıca olaraq milli kapitalı himayə edir, onun geniş fəaliyyətinə şərait yaradırdı.

Hər bir kəndli ailəsinə torpaq sahəsi verilməsi və aşar vergisinin ləğv edilməsi də tezliklə səmərəsini verdi. Əkin sahələri genişləndi, taxılın və texniki bitkilərin istehsalı artdı, heyvandarlıq inkişaf etdi.

Mustafa Kamal inqilabları iqtisadi və sosial həyatda öz bəhrəsini verdi. Milli sənaye yarandı, kənd təsərrüfatı yüksəldi. 20-30-cu illərdə 20-ci illərdə Türkiyə dövləti Türkiyənin dünyanın bir sıra ölkələri ilə diplomatik münasibətlər yaratdı.

İkinci Dünya müharibəsi ərəfəsində Türkiyə fəal xarici siyasət yeridirdi. 1932-ci ildə Türkiyə Millətlər Cəmiyyətinə daxil oldu. Türk hökuməti boğazlara dair Lozanna konvensiyasına yenidən baxılması üçün 1936-cı ildə beynəlxalq Montrö konfransının çağırılmasına nail oldu. Boğazlar faktik olaraq Türkiyənin daxili sularına çevrildi. Qara dənizə çıxışı olmayan ölkələrin hərb gəmilərinə boğazlardan keçmək qadağan olundu.

1937-ci ildə Türkiyə Əfqanıstan, İran İraqla hücum etməmək **haqqında Səədabad paktı** bağladı. Bununla da, İkinci Dünya Müharibəsində Türkiyənin bitərəfliyinin əsası qoyuldu. M.K.Atatürk 1938-ci ildə vəfat etdi.